# SUMQAYITDA XALQ ŞAİRİ VAHİD ƏZİZLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

## *Şairin respublika Dövlət Mükafatına təqdim edilmiş «Param-parça illər...» kitabı müzakirə edilərək, yüksək dəyərləndirilmişdir*




***Təbiət elmləri təmayüllü Gimnaziyada təşkil edilmiş tədbirdə Sumqayıtın bu qabaqcıl tədris ocağının direktoru, Azərbaycanın Əməkdar müəllimi Nizami Əhmədov hörmətli qonağı salamalayaraq, onun həyat və yaradıcılığı, respublika Dövlət mükafatına təqdim edilmiş «Param-parça illər...» kitabı haqqında tədbir iştirakçılarına geniş məlumat vermişdir.***

Qeyd edilmişdir ki, kitaba daxil edilmiş şeirlər əsas etibarilə xalqımızın 1988-ci ildən ötən 29 il ərzində doğma Qarabağımızın, müqəddəs Şuşamızın nisgili və 2020-ci ildə Ali Baş Komandanımız İlham Əliyevin müdrik rəhbərliyi, uğurlu strateji və taktiki tədbirləri nəticəsində çox qısa müddətdə — 44 gün ərzində qazanılmış böyük Vətən Qələbəsinin nəhayətsiz sevincini, döyüşçülərimizin vətənpərvərlik nümunələrini, igidlik, qəhrəmanlıq əzmini, rəşadətini, şəhidlərimizin böyük Vətən sevgisini, ölməzlik ruhunu əks etdirir.

Əslən Qərbi Zəngəzurun Dərələyəz mahalından olan, uşaqlıq və gənclik illərini daim Qarabağ ab-havası duyulan Tərtərdə keçirmiş Vahid Əziz hər zaman qəlbində doğma yurd, Qarabağ həsrətini, ağrı-acısını yaşatmışdır. Eyni zamanda torpaqlarımızın, bir çox kənd və şəhərlərimizin düşmən işğalında olduğu 29 il ərzində daim Koroğlular, Babəklər nəslinin nə vaxtsa ayağa qalxıb, erməni faşistləri üzərində tarixi Zəfər çalacağına inanan şair ötən illər boyu Qarabağla, Zəngəzurla bağlı həm nostalji-nisgilli, həm də nikbinliklə dolu silsilə şeirlər yazmışdır. Onun son illərdəki poeziyası sanki Milli Ordumuzla birgə güclənmiş, Qələbəyə köklənmişdi. Bir vaxtlar — ötən əsrin 90-cı illərində ümidsizlik və çarəsizlik içərisində:

*Qoç Koroğlu, məzarını yarım, çıx!*
*Çox işimiz o vaxtlardan yarımçıq,*
*«Dəlilər»dən beş-on nəfər qalmışıq,*
*Çoxlarını oyandıra bilmədik...*

– yazan şair Qələbəmizin yaxınlaşdığı 2020-ci ilin ilk noyabr günlərində az qala bütün dünyaya gur səsi ilə, böyük sevinclə hayqırırdı:

*Bu gün Sərkərdənin duydum səsində*
*Çeşmə kövrəkliyi, vulkan kürlüyü,*
*Böyük Qələbənin bünövrəsində*
*Dövlət başçısıyla — millət birliyi!*
*Qəhrəman Ordumuz düşməni yıxıb! —*
*Zamanın məkrinə tabe olmadıq!*
*Biz həm sələflərin borcundan çıxıb,*
*Həm də varislərə borclu qalmadıq!*

Gimnaziya şagirdlərinə dil-ədəbiyyat fənnlərini tədris edən Azərbaycanın Əməkdar müəllimi Fazil Ellazov şairin son illərdəki yaradıcılığının çox məhsuldar olduğunu qeyd edərək, onun Respublika Dövlət mükafatına təqdim edilmiş «Param-parça illər...» kitabında toplanmış vətənpərvər ruhlu, Qarabağ həsrətli-həyəcanlı, Qələbə müjdəli şeirlərini, onlardakı Vətən, xalq sevgisini yüksək dəyərləndirmişdir. O, qeyd etmişdir ki, şairin «Zəfər — millətimin altun tacıymış» şeirində xalqımızın Qələbəyə olan inamı, qoca-cavan hamılıqla Milli Ordu sıralarına, cəbhəyə can atması bütün coşqunluğu, reallığı ilə əks edilmişdir:

*...qanları coşurdu mərd oğlanların,*
*Hərbi hissələrə yeniyetmələr*
*Cumurdu — «bizi də əsgər aparın!»*
*Qonşuda bir ahıl — 90 yaşında*
*Döşünə döyürdü: «topçşu olmuşam!»*
(yəni ki, «məni də unutmayın!»)

Vətən müharibəsindən hələ üç il əvvəl — 2017-ci ildə yazılmış şeirinin birində şair qürurla, fəxrlə bildirir ki, «yatmış şir kimidir Azəri xalqı!»:

*Yetər ki, o mühüm Fərman oxunsun,*
*Düşmən nişangahda, biz ayıq-sayıq.*
*Ali Baş Komandan arxayın olsun,*
*Hamımız Öndərin övladlarıyıq!..*

Qanı daim qəhrəmanlıqla, igidliklə kükrəyən xalqımızın illər boyu qəlbini dolduran döyüşkənlik, qisas əzminin, Qələbə təşnəsinin nə qədər böyük, güclü olduğunu Vahid Əziz bu misralarla çox dəqiq diqqətə çatdıra bilmişdir:

*Piyadası səngər qazır,*
*Atları yəhərli Vətən.*
*Kimsəyə yenilən deyil*
*Min-min igid ərli Vətən!*

Bütün xalqımızla birgə Vətən müharibəsinin ilk günlərindən düşmənə ağır zərbələr endirən cəsur Azərbaycan oğullarının hünərindən ruhlanan şair 29 il davam edən ağrı-acılara, ayrılıqlara, iztirablara son qoyulması istəyilə həmin günlərdə coşqunluqla, işğalçı, təcavüzkar, faşist xislətli düşmənə sonsuz nifrət hissi ilə yazırdı:




*Zəfər zamanıdır, qisas günüdür,*
*Gözəl Qarabağın xilas günüdür,*
*Bu savaş İstiqlal bünövrəsidir —*
*Yalnız irəliyə, yalnız irəli!*
*Şəhiddir göylərdə ulduza dönən,*
*Vətənə nur yayıb, şam kimi sönən.*
*Əsgər, qurban olum, gümanımız sən —*
*Yalnız irəliyə, yalnız irəli!*

Vahid Əziz vətənpərvər bir şair kimi xalqımızın ən çətin, ağır məqamlarında güvəndiyi, mənəvi güc aldığı əfsanəvi obrazları — Dədə Qorqudu, Koroğlunu yada salaraq, sanki Milli ordumuzun onlarla birgə daha əzəmətli, məğlubedilməz olduğunu diqqətə çatdırır, döyüşçülərimizə yenilməzlik ruhu aşılayır:

*İnanıram — xəbər çatıb Dədə Qorquda,*
*Koroğlu da, dəlilər də sıramızdadır!*
*Bu cür inamla yaşayan şairin:*
*Allah adamıyam, mənə vəhy gəlir:*
*Ordumuz düşməni yıxacaq sabah,*
*Duydum — qalib gələn Azərbaycana*
*Dünya heyran-heyran baxacaq sabah!*
—deməsi də çox təbiidir.

Həqiqətən də, Azərbaycanımızın igid, qəhrəman övladlarının ikinci Qarabağ müharibəsində azğın düşmən üzərində qazandığı möhtəşəm tarixi Qələbə artıq iki ildir ki, dünya siyasətçilərinin, nüfuzlu hərbi ekspertlərin çox ciddi, böyük maraq doğuran mövzu obyektinə çevrilmişdir.

Tədbirdə çıxış edən digər dil-ədəbiyyat müəllimi Gövhər Zülfüqarova şair Vahid Əzizin böyük Qələbənin qazanılmasında müstəsna rolu olmuş cəsur döyüşçülərimizin — cəbhə meydanlarında igidliklər göstərmiş qazilərimizin, Qarabağ uğrunda şəhid olmuş yüzlərlə Azərbaycan oğullarının mərdliklə, hünərlə döyüşlərə atılmasının Vətəni və onun üçrəngli Bayrağını uca və müqəddəs tutmaları ilə poetik şəkildə, yüksək sənətkarlıqla əlaqələndirməsini diqqətə çatdırmışdır:

*Rəssam işi deyil Bayraq yaratmaq,*
*Millətin ruhundan Bayraq doğulur!..*
*Bayraq qibləgahdı, inam yeridi,*
*Önündə diz çöküb, gərək öpülsün,*
*Şəhidin üstünə o salınır ki,*
*Vətəndən arxayın uyuya bilsin...*

Tədbirdə çıxış edən digər müəllimlər də gənclərə yüksək vətənpərvərlik duyğuları aşılayan şeirlərinə, bir çox sevilən mahnılara qanad vermiş lirikasına, həmçinin «Mənə 100 il ömür arzulamayın» şerinə görə Vahid Əzizə öz rəğbət və ehtiramlarını bildirmişlər. Onlar xalq arasında populyarlığı ilə seçilən, yalnız məhəbbət lirikası ilə deyil, həm də dərin ictimai-siyasi, Qarabağ mövzusundakı şeirləri ilə xalqın qəlbinə yol tapmış Vahid Əzizin yaradıcılığını, onun vətənpərvərlik mövzusundakı orijinal şeirlərini yüksək qiymətləndirmişlər.

Tədbir gimnaziya şagirdlərinin ifasında şairin çox sevilən şeirlərinin, o cümlədən «Sən mənim əbədi Qarabağımsan!», «Vətən», «Şəhid məzarına gül gətirən qız», «İkimiz Vətənlə ana-balayıq», «Tanrı, qoru Azərbaycan ordusunu», «Bilirsənmi, Vətən nədir?» və digər şeirlərin səsləndirilməsi ilə davam etmişdir.

Görüş iştirakçılarının alqışları altında çıxış edən şair Vahid Əziz hələ də — hər gün Qarabağ Qələbəsinin sevinci ilə yaşadığını bildirərək, özünün «Param-parça illər...» kitabından və yeni yazdığı şeirlərini oxumuş, tədbirin yüksək səviyyədə təşkilinə görə Gimnaziya rəhbərliyinə, müəllim və şagird kollektivinə təşəkkürünü bildirmişdir.

Tədbir iştirakçıları Vahid Əzizin «Param-parça illər...» kitabının respublika Dövlət Mükafatına təqdim edilməsini bəyəndiklərini, onun döyüşkən, vətənpərvərlik poeziyasının bu yüksək mükafata layiq olduğunu bildirmişlər.

Sevimli şairə görüşdən yadigar olaraq Sumqayıtın son illərdəki tərəqqisi ilə bağlı «Dənizə addımlayan şəhər. Sum qayıtdı...» adlı kitab bağışlanılmışdır.

Görüş müəllim və şagirdlərlə birgə xatirə şəkillərinin çəkilməsi ilə başa çatmışdır.

**Rəhman ORXAN,**
**Respublikanın Əməkdar jurnalisti.**

